

Hüquqi, demokratik dövlət quran, dağ vüqarlı, doğma Azərbaycanımızın yüksəlişi naminə!

# BABADAĞ

Həftəlik İctimai-siyasi hüquq qəzeti

№ 11 (111) 30 sentyabr 2005-ci il Qəzet 1992-ci ildən çıxır E-mail: babadagazeti@box.az Qiyməti 1000 manat

# RAFİQ BƏYLƏR OĞLU ABDULLAYEVƏ SƏS VERİN!



Azərbaycan Respublikası Milli Məclisinə 6 noyabr 2005-ci il tarixinə təyin olunmuş seçkilərdə 53 saylı Quba-Qusar seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülüb.

Anadan olduğu yer: Quba rayonu, Buduq kəndi;
Doğulduğu tarix: 15 iyul 1949-cu il;
Təhsili: Ali təhsilli mühəndis-elektromexanik, hüquqşünas.

## Fəaliyyəti haqqında qısa arayış:

Əmək fəaliyyətinə 17 yaşında başlayıb;
1966-1969-cu illərdə: Azərbaycan Elmi-Tədqiqat Geofizika İnstitutunda texnik;
1969-1972-ci illərdə: Azərbaycan Dövlət Universitetində fizika kafedrasında mühəndis;
1972-1973-cü illərdə: Orduda xidmət;
1973-1995-ci illərdə: Daxili İşlər Nazirliyində müxtəlif vəzifələrdə işləyib.
Azərbaycan Respublikasının Müharibə Veteranı;
Türk Dünyası Partiyasının sədri;
"Baba Dağ" ictimai-siyasi hüquq qəzetinin təsisçisi;
Azərbaycan Aşıxara Karate Federasiyasının təsisçisi;
Qarabağ Azadlıq Təşkilatının İdarə Heyətinin üzvü;
"Buduq" Xeyriyyə Cəmiyyətinin prezidenti;
1998-ci ildən bu günədək "Barmek Azərbaycan Elektrik Şəbəkəsi" MMC-nin hüquq şöbəsinin rəis müavinidir.
Ailəlidir, 3 övladı var.

## Abdullayev Rafiq Bəylər oğlunun seçkiqabağı platformasının əsas istiqamətləri:

*1. Azərbaycanın ərazi bütövlüyünün tam və birdəfəlik təmin olunmasına yönələn prinsipial və operativ mövqe tutmaqla vətənçilik ənənəsi üçün əsas şərt və mühüm vasitə olan möhtəşəm, qüdrətli, müstəqil Azərbaycan dövlətinin sivil dünyada öncül mövqe tutması, inkişaf etmiş dövlətlər arasında layiqli varlığı üçün hüquqi, dünyəvi, demokratik dövlət, ədalətli vətəndaş cəmiyyəti prinsiplərinə, qanunların aliliyinə və cəmiyyət üçün zərurətdən yarandığına, elmi-texniki tərəqqiyə və iqtisadi inteqrasiyaya əsaslanaraq Vətənimizin istiqlaliyyət, suverenlik, demokratiya yolu ilə dönmədən, qətiyyətlə irəliləməsi üçün zəruri, ədalətli qanunvericilik konsepsiyalarının təqdimi və hər vasitə ilə müdafiəsi;*

*2. Hüquqi cəmiyyət quruculuğuna, insan və vətəndaş hüquq və azadlıqlarına tam təminat verən vətəndaş cəmiyyətinin təşəkkülünə, mədəniyyətimizin çiçəklənməsinə, qüdrətli iqtisadiyyatımızın yaradılmasına, yüksək elmi-texniki, milli-mənəvi və sosial tərəqqiyə bilavasitə xidmət edən qanunların hazırlanıb reallaşmasında fəal iştirak;*

*3. Əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində əməli addımların atılması, respublikada təqaüdlərin, orta aylıq əmək haqqının yüksəldilməsi, minimum yaşayış səviyyəsinə uyğun tədbirlər planını hazırlamaq və reallaşmasına nail olmaq;*

*4. Yoxsulluğun, işsizliyin ləğvi, əhalinin az təminatlı hissəsinin sosial müdafiəsi üçün əməli tədbirlər;*

*5. Quba, Qusar rayonlarında əhalinin fərdi və kollektiv problemlərinin həlli ilə bağlı səhiyyə, təhsil, mənzil və digər sosial hüquqlarının qorunması istiqamətində tədbirlər;*

*6. Quba-Qusar bölgəsində sahibkarlığın inkişafı, bölgü torpaqlarının paylanmasında yaranmış problemlərin, su, işıq, qaz problemlərinin həlli, kreditlərin verilməsi, yeni iş yerlərinin açılması sahəsində əməli addımlar;*

*7. Əhalinin rəy və təkliflərinin daima öyrənilməsi və təhlili və fəaliyyətinin buna əsaslanaraq davam etdirilməsi;*

*8. Böyük Vətən Müharibəsi iştirakçılarının, Qarabağ Müharibəsi veteranlarının və əlillərinin, şəhid ailələrinin maddi rifah halının yaxşılaşdırılması və problemlərinin həllinə nail olmaq;*

*9. Quba-Qusar gənclərinin elm, təhsil, mənzil, ailə və di gər problemlərinin həllində onların yaxın dostu olmuq, bölgədə idmanın inkişafına hərtərəfli yardım etmək;*

*10. Respublikada gənclərimizin vətənpərvərlik, milli-əxlaqi maariflənmə sahəsində əməli fəaliyyət;*

*11. Azərbaycanda inhisarçılıq, haqsız rəqabət, korrupsiya və rüşvətxorluğa qarşı mübarizə sahəsində barışmaz mövqe və konkret konsepsiya işlənib hazırlanması və reallaşdırılması;*

*12. Xarici ölkələrdə və beynəlxalq görüşlərdə Azərbaycanın şərəf və ləyaqətini qoruyan çıxışlar etmək;*

XXI əsrin türk-azərbaycan dünyası əsri olacağına əminiyyətini bildirməklə, Odlar Yurdu Azərbaycanın taleyi ilə bağlı hər hansı problemlə əlaqədar konkret münasibət ifadə etmək, Vətən naminə daima lazımi addımlar atmağa hazır olduğunu bəyan edir.

(Ardı 2-ci səh.)

# RAFİQ BƏYLƏR OĞLU ABDULLAYEVƏ

# SƏS VERİN!

**Azərbaycan Respublikası Milli Məclisinə 6 noyabr 2005-ci il tarixinə təyin olunmuş seçkilərdə 53 saylı Quba-Qusar seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülüb.**

(Əvvəli 1-ci səh.)



Abdullayev Rafiq Bəylər oğlu 1949-cu ildə Quba rayonunda anadan olub, elə orada orta məktəbi bitirmişdir. O, hələ yeniyetmə ikən ədalətin, obyektivliyin qızğın tərəfdarı olmuş, prinsipiallığı ilə fərqlənmişdir.

R. Abdullayev Azərbaycan Neft və Kimya İnstitutunda (indiki Azərbaycan Neft Akademiyası) təhsil alıb. Eyni zamanda təhsilini xalq təsərrüfatının müxtəlif sahələrində təcrübəsi ilə zənginləşdirmişdir. 1972-ci ildə həmin ali təhsil müəssisəsini müvəffəqiyyətlə bitirmiş və energetika mühəndisi ixtisasına yiyələnmişdir.

1972-73-cü illərdə Ordu sıralarında xidmət etmişdir.

1974-cü ildə müəssisə kollektivinin zəmanəti ilə respublika Daxili İşlər Nazirliyinə qəbul olunmuş, polkovnik rütbəsinə kimi yüksəlmişdir. Daxili İşlər Nazirliyinin orqanlarında müxtəlif məsul vəzifələrdə ləyaqətlə xidmət edib. O, DİN sistemində obyektiv olması və ədalətsizliyə qarşı barışmazlığı ilə tanınmışdır...

R.Abdullayev DİN-də xidməti ilə yanaşı ali hüquq təhsili də almışdır. 1982-1985-ci illərdə sabiq SSRİ DİN-nin 5 illik təhsil müddəti olan Volqoqrad Ali İstintaq Akademiyasını 2 il 5 ay ərzində böyük müvəffəqiyyətlə başa vurmuşdur. Eyni zamanda həmin təhsil müəssisəsində Qafqazın təmsilçisi kimi tanınmışdır. Qısa müddətdə xüsusi hüquqi biliklərə mükəmməl yiyələnən R.Abdullayevin sonralar Azərbaycan Daxili İşlər Nazirliyində daha yüksək postlar tutmasına, onun rejimin haqsızlıqlarına qarşı barışmaz mövqe bildirməsi, mübarizəkar olması, qətiyyətli etirazları mane olmuşdur. Ən əsası isə hələ 80-ci illərdə təbeçiliyində olan bir neçə erməni işçisinin yol verdikləri intizamsızlığa və etdikləri özbaşınalığa görə tutduqları vəzifələrdən azad edilməsinə nail olub. Elə bu hərəkətlərə görə bəzi rəhbər işçilər tərəfindən təzyiqlərə məruz qalmışdır.

R.Abdullayev 1990-cı ildə Qorbaçov rejiminin Bakıda törətdiyi qırğınlara etiraz olaraq, öz əməyi ilə qazandığı mükafat və medallardan qəti imtina etmişdir.

DİN-də xidmət etdiyi dövrdə torpaqlarımızın erməni təcavüzkarlarından qorunmasında, Çaykəndin azad edilməsində, Murov istiqamətində və digər qaynar nöqtələrdə gedən döyüşlərdə fəal iştirak edib. Müharibə veteranıdır.

Həmişə haqsızlığa, ədalətsizliyə, özbaşınalığa, vəzifədən sui-istifadəyə, rüşvətxorluğa qarşı mübarizəkar və qətiyyətli olub. 1993-cü ildə DİN rəhbərliyində bəzi vəzifə hərislərinin özbaşınalıqlarının, rüşvətxorluqlarının vüsət aldığının şahidi olan Rafiq Abdullayev, Daxili İşlər Orqanlarından nümayişkarcasına istefa verdi.

Özünün xeyirxahlığı, imkansızlara imkanı daxilində kömək etmək istəyi onu xeyriyyə cəmiyyətini yaratmağa sövq etdi. Öz ətrafına az-çox imkanlı və təəssübkeş insanları toplayaraq xeyriyyəçilik fəaliyyətinə başladı. R.Abdullayev "Buduq" xeyriyyə cəmiyyətinin təşkilatçısı, yaradıcısı və hal-hazırda prezidentidir.

"Buduq" xeyriyyə cəmiyyəti yüzlərlə adama rəsmi və qeyri-rəsmi köməkliklər etmiş, yardımlar göstərmişdir. Çünki R.Abdullayevin xeyriyyəçilik missiyasının məqsədi özünü reklam olmamış, həmişə "sağ əlin verdiyini sol əl bilməməlidir" kəlamına əsaslanmışdır.

R. Abdullayev bu gün də yardım etdiyi insanların adlarını açıqlamır, sadəcə imkansız adamlara, şəhid ailələrinə, əlillərə köməyin vacibliyini vurğulayır.

R.Abdullayevin rəhbərlik etdiyi "Buduq" cəmiyyəti respublikada elmin, təhsilin, mədəniyyətin inkişafına daima qayğı göstərilməsini vacib sayır. Neçə-neçə kitabın buraxılmasında onun şəxsi rolu təkzib olunmazdır.

R.Abdullayev gənclərimizin təhsili haqqında belə düşünür: "Yaxşı oxumaq, hər tərəfli təhsil almaq bu gün dünənkindən daha vacibdir. Gələcək bacarığı, savadı, is qabiliyyəti yüksək olan adamlarındır. Həmin adamları nəyin bahasına olursa olsun indidən tərbiyə etmək lazımdır". *Məhz, onun təşəbbüsü sayəsində respublikada* idmanın inkişafı ilə əlaqədar bir sıra işlər görülmüşdür. Hazırda Rafiq Abdullayev "Budo-kay-kan" karate federasiyasının təsisçilərindəndir.

Müstəqil dövlətçiliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi uğrunda mübarizə ilə səciyyələnən çağdaş dövrümüz, xalqımızın çox əsrlik tarixinə həm də milli mənlik, özünüdərk şüurunun oyanması, mənəvi dəyərlərimizə qayıdış illəri kimi daxil olacaqdır.

"Buduq" xeyriyyə cəmiyyəti, başda prezidenti R.Abdullayev olmaqla azərbaycançılıq-türkçülük istiqamətində əməli işlərini davam etdirir və bu yolda əlindən gələni əsirgəməyib.

**Bəzi xarici dövlətlərdə siyasi dairələrin erməni millətçilərinin ekstremist təhriklərinə uyaraq türk dünyasına qarşı qərəzli mövqeləri, qondarma "erməni soyqırımının" bir sıra dövlətlərin ermənipərəst parlamentlərində müzakirəsi və tanınması "Buduq" xeyriyyə cəmiyyəti tərəfindən haqlı olaraq qəzəblə qarşılanmışdır. Azərbaycanda belə qərəzli dövlətlərə ilk kəskin etiraz bildirən ictimai birliklərdən biri də məhz "Buduq" xeyriyyə cəmiyyəti olmuşdur.**

**ABŞ senatına, Fransa senatına "Buduq" xeyriyyə cəmiyyəti adından etiraz bəyanatları göndərilmişdir.**

# Vətənin ən layiqli övladlarına səs verək!



**Bağırov Maarif Müseyib oğlu Gəncə şəhərində anadan olub. Yüksək peşəkar idmançı olan Maarif Bağırov hal-hazırda Azərbaycan Aşihara Karate Federasiyasının baş məşqçisidir. Onun gərgin əməyi nəticəsində 2001-ci ildə Bakı şəhərində karate federasiyası təsis edilmiş, onun mərkəzi məktəbi açılmışdır. Daha sonra respublikamızın ayrı-ayrı bölgələrində, o cümlədən, Gəncə, Xanlar, Şəki, Şəmkir, Biləsuvar şəhərlərində federasiyanın məktəbləri təşkil edilmiş, öz fəaliyyətlərinə başlamışlar. Yüzlərlə gənc, uşaq həmin məktəblərdə bu karate növünün incəliklərinə həvəslə yiyələnir. Maarif Bağırovun istedadlı tələbələrinin rəhbərliyi altında məşqlər edirlər.**

**Ailəlidir, 3 övladı var.**

"Sağlam bədəndə sağlam ruh olar" deyiblər. Həqiqətən də belədir. İnsan fiziki cəhətdən nə qədər sağlam, güclü olarsa, ruhən, mənən də bir o qədər gümrah, çevik və həyatsevər olar.

Son zamanlar respublikamızda idmanın inkişafına dövlət



qayğısı yüksəlmişdir. Ayrı-ayrı bölgələrdə Olimpiya İdman Komplekslərinin tikintisi, müasir idman bazalarının yaradılması sevindiricidir.

Hesab edirəm ki, gənclərimizin düzgün tərbiyəsi və sağlam böyüməsi dünya miqyaslı idmançılarımızın yetişdirilməsi kimi zəruri bir sahəyə vətənpərvər, təəssübkeş, imkanlı insanların köməklik göstərməsi də çox vacibdir.

Hələ xeyli əvvəl dostum Rafiq Abdullayevlə birlikdə Bakıda yeni, müasir karate idman növünü təşkil etmək istəyirdik, bu məqsədlə mən Hollandiyaya səfər etdim. Orada Budo-kay-kan karate 5 növlüyü ilə yaxından tanış oldum. Növbəti səfərim zamanı federasiyanın mərkəzində imtahan və sınaqlardan ləyaqətlə çıxıb beynəlxalq məşqçi dərəcəsinə layiq görüldüm.

Bakıya qayıtdıqdan sonra Rafiq Abdullayevlə birgə Bakıda həmin karate federasiyasını təsis etməyi qət etdik. Bunun üçün Bakı şəhəri Səməd Vurğun küçəsinin yaxınlığında yerləşən Zabitlər bağında yer seçdik. Rafiq Abdullayev federasiyanın yaradılması işində, təsisat sənədlərinin hazırlanmasında, Ədliyyə Nazirliyində qeydiyyatdan keçməsində mənimlə çiyin-çiyinə çalışmışdır. Nəhayət, biz 2001-ci ildə karate federasiyasının Bakı mərkəzinin yaradılmasına nail olduq. Rafiq Abdullayev federasiyanın bütün fəaliyyəti dövründə yaxından iştirak etmiş, məktəbə qayğısını heç bir an əsirgəməmişdir. Bu Rafiq müəllimin böyük ürəkli, fədakar insan, vətənpərvər, yüksək əqidəli vətəndaş, gənclərimizin dostu olmasına bir daha sübutdur. O, xarici səfərlərdə daima bizimlə olmuş, iştirakı ilə idmançılarımızı qələbələrə ruhlandırmışdır.

2002-ci ildə Danimarkada keçirilən beynəlxalq yarışda idman məktəbimizin yetirmələrinin çıxışları Beynəlxalq Aşihara Karate Federasiyasının Prezidenti Xidonori Aşiharanın nəzərindən yayınmadı. Rafiq müəllim və mən Xidonori Aşihara ilə görüşdə Aşihara karatenin incəliklərinin Azərbaycanda gənclərimizə və uşaqlarımıza yüksək səviyyədə öyrədildiyi və gənclərimizin sağlamlığının möhkəmləndirilməsi, onların bədən tərbiyəsinin və hərtərəfli hormonik inkişaf təsirinin gücləndirilməsi ilə yanaşı, onlarda vətənpərvərlik, cəsurluq, dözümlülük kimi ali keyfiyyətlərin də aşılanması haqqında geniş məlumat verdik. O, bizim məktəbin fəaliyyətilə dərindən maraqlandı, sonralar bizim dəvətimizi qəbul edib Azərbaycan Aşihara Federasiyası ilə yaxından tanış olmaq üçün Azərbaycana gəlmək istədiyini bildirdi. Yəqin ki, yaxın zamanlarda Azərbaycan Aşiharaçılarına bu böyük şəxsiyyətlə görüşmək nəsib olacaq.

Qeyd edim ki, 2004-cü ilin sonunda Bakı şəhəri Gənclik Olimpiya Mərkəzində Aşihara karate növü üzrə respublika çempionatı müvəffəqiyyətlə təşkil olunub keçirilmişdir. Yarışda Bakı şəhəri rayonlarının karate məktəblərinin yetirmələri ilə yanaşı Gəncə, Şəki, Xanlar, Biləsuvar, Şəmkir məktəblərinin idmançıları da öz məharətlərini nümayiş etdirmişlər. Daha sonra Şəki şəhərində beynəlxalq yarış keçirildi. Həmin yarışda idmançılarımızın yüksək müvəffəqiyyət qazanması yadda qalan və sevindiricidir.

Həmin yarışların təşkil edilməsində və müvəffəqiyyətlə həyata keçirilməsində Rafiq Abdullayevin yüksək təşkilatçılığını xüsusi qeyd etmək istərdim. Ra-



fiq Abdullayev gənclərin yaxın dostu olduğunu, ölkəmizdə idmanın inkişafına qayğı ilə yanaşdığını yarışdakı fəallığı ilə bir daha sübut etdi. O, bu gün də Azərbaycan Aşihara Karate Federasiyasının gündəlik həyatında yaxından iştirak edir, öz tövsiyyə və məsləhətlərini, əməli köməyini bizdən əsirgəməyir. Buna görə bütün Azərbaycan Aşiharaçıları adından və şəxsən öz adımdan Rafiq Abdullayevə böyük minnətdarlığımı bildirir, ona uğurlar arzulayıram.



**Mən 6 noyabr 2005-ci il seçkilərində 53 saylı seçki dairəsinin seçicilərini Rafiq Bəylər oğlu Abdullayevə səs verməyə dəvət edirəm.**

***Maarif Bağırov,***
***Azərbaycan Aşihara Karate Federasiyasının vitse-prezidenti.***



**Hüquqi, demokratik dövlət quran, dağ vüqarlı, doğma Azərbaycanımızın yüksəlişi naminə!**

# BABADAĞ

Həftəlik İctimai-siyasi hüquq qəzeti

№ 11 (111) 30 sentyabr 2005-ci il Qiyməti 1000 manat


# Atamın kitabından

**Oğul, unutma insan oğlu insan öz nəfsinin qulu olmamalıdır, öz nəfsini, tamahını, istəyini əqidəsinə tabe etməyi bacarmalıdır. Belə olan tərzdə insan oğlu insan özü özünə qalib gələ bilər.**

Bir də səninlə hər xoş danışanın, sənə yarınmaq istəyənin dilinə inanmağa tələsmə, opponentinin xislətini öyrənməmiş öz ürəyini, sirrini açmağa tələsmə.

Nadan adamlarla oturub durma, nadanlaşarsan. Pis adama onun xəbis işində kömək olmaq, yaxşı adamlara pislik etmək eyni bir şeydir. Özün də həmişə pislik etməkdən uzaq ol. Fikirlərini (ürəyindəkiləri) açıb-tökməyə tələsmə, ürəyini açanda da özündən ağıllı dosta aç ki, ondan ziyan görməzsən. Axmaq adamlarla dostluqdan uzaq ol, çünki, bir gün özün onların xasiyyətinə düşərsən.

İnsanları yalnız sənə qohum olduqlarına görə sevib qiymətləndirmə, yaxşını pisdən ayırmağı öyrən, lakin bu zaman bunu çox incə, zərif elə ki, onlar duyuq düşməsinlər. Kobudluqdan qaç.

Həmişə nəzakətli olmağa səy göstər. Unutma, insana nəzakət qədər asan başa gələn heç bir digər keyfiyyət yoxdur, heç nə də



nəzakət qədər yüksək qiymətləndirilmir.

Səndən böyüklərin hörmətini saxla ki, səndən kiçiklər də sənə hörmətlə yanaşsınlar.

Həmişə nə isə öyrənməyə çalış. Tənbəllikdən qaç, çünki tənbəllikdən böyük eyib (bəla) yoxdur. Səadəti elmdə öyrənməklə axtar. Elmli adam hərəkətlərində sanballı olar, nadanlıq etməz.

Ehtiyacı olanlara kömək etməyə çalış, lakin bunu bacardıqca üzə vurma və ya başqalarının yanında bu haqda özün danışma.

Nə baş verirsə versin, müvazinətini itirməməyə (saxlamağa) çalış. Çünki, həyat güclüləri sevir. Zəifliyini büruzə versən əsl dostları peşman edərsən, düşmənləri sevindirərsən, ətrafı isə özünə güldürərsən.

Həmişə məğrur və ədalətli ol. Hirsli (qəzəbli) olanda etmək istədiyini etmə. Hər xırda pisliyin dalınca getmə, çünki, sən də xırdalaşıb pislərdən olarsan. Mübahisədən çəkin, çünki nadanı mübahisə etməklə qandıra bilməzsən.

Mənalı yaşamağa çalış. Nə qədər mənalı günlərin çoxsa, bir o qədər yaşayırsan. Mənasız keçən bütün günlər hesaba alınmır.

# İnsan həyatına əhəmiyyəti olan qaydalar

*Səni yaradanı tanı və onun buyurduğu şərtlərə əməl et.

*İslam dinini öyrən və şərtlərinə əməl et, çünki İslam dini əxlaqlı yaşamağı öyrədən dindir.

*Kimsənin haqqını yemə və haram qazancdan uzaq ol.

*Ata-ananı bütün insanlardan üstün tut.

*Əsəbi olduğun vaxtlarda qərar qəbul etmə.

*Çətin vəziyyətə düşdükdə belə, məcburiyyət qarşısında olsan da heç bir insanın heç vaxt qəlbini qırma.

*İnsanlarla ünsiyyətdə olduğun vaxt ədəb qaydalarına riayət et.

*Plansız və düzgün qərar qəbul etməmiş yola çıxma.

*Pisliyə qarşı yaxşılıq göstərməyə çalış.

*Yaxşı ilə pisi bir-birindən ayırmağı bacar.

*Ailədə və işdə verdiyin qərarların ədalətli olmasına diqqət et.

*Çətinliklərlə üzləşsən də belə öz məqsədlərinə nail olmamış əl çəkmə.

*Məqsədlərinə nail olmaq istəyirsənsə, çox çalış və əmək sərf et.

*Maddi imkanın yaxşıdırsa, imkansız və ehtiyacı olanlara yardım et.

*Məsləhətləşəcəyin insana güvən və inamın olduğu insan olsun.

*Keçmişindən daima dərs çıxarmağa çalış.

*Heç bir insana kin bəsləmə və intiqam almaq yolu ilə getmə.

*Yaranmış problemin səbəbini araşdırmamış qərar qəbul etmə.

# CÜMƏ - MÜQƏDDƏS GÜNDÜR

**Hacı Salman Babazadə,**
**Salyan Məscidinin Axundu, Nahiyyə Qazisi**



Bismillahir rəhmanir-rəhim.

Məlum məsələdir ki, dünyada mövcud olmuş və indi də mövcud olan təqvimlərdə il aylara, aylar həftələrə, həftələr günlərə, günlər saatlara bölünür. Bu günlər əzəli yaranışın cövhəri olan dünyanın kainat adlanan bir dairədə dəyişilməz və bölünməz qanunudur. İstər dünyada insan cəmiyyətinin formalaşdığı dövrlərin bütün dolaylarında, istərsə də bugünkü təqvimlərdə yeddiyə bölünən həftənin axırıncı günü istirahət günü hesab edilir.

Bu istirahət günü müxtəlif təqvimlərdə müxtəlif günlərə təsadüf edir. Bu da təbii ki, günlərin müqəddəsliyi baxımından səciyyələnir. 1996-cı ilin yaşadığımız miladi təqvimində (milad təvəllüd mənasındadır) istirahət günü həftənin yeddinci günü olaraq əhyadirilmə günü götürülür. Bu hicri-qəməri təqviminin yekşənbə gününə təsadüf edir. Bu təsadüfü xristianlıq aləmində, daha doğrusu, xristianlıq tarixində müqəddəs bir gün kimi səciyyələnərək onu İsa peyğəmbərin dünyaya gəldiyi gün kimi qəbul edib müqəddəsləşdirmişlər. Həzrət İsa peyğəmbərin doğulması haqqında müxtəlif rəvayətlər var ki, biz bu rəvayətləri təmamən rədd edirik. Biz yalnız Həzrət İsa peyğəmbərin necə dünyaya gəlməsi haqqındakı həqiqəti, asimani-müqəddəs kitabımız olan Qurani-Kərimin dediyi kimi, Allahın ruhundan əmələ gəlməsini təsdiq edirik və o Həzrətə "İsa ruhullah" deyirik. Həzrəti İsanı (ə.s.) dünyaya gətirən Məryəm ana bakirə qız ikən uşaq doğduğuna görə müqəddəsləşdirilmiş və bu uşaq da sonralar ülül-əzəm peyğəmbər kimi tanınmışdır. *124 min peyğəmbərin daxilində olan beş nəfər əzəmətli, yəni Allah-təala yanında və həm də məxluqat yanında şəni uca olan yüksək dərəcəli peyğəmbərlərdən biri olmuşdur. Bakirə qızın uşaq doğması təəccüblü olduğu qədər də, möcüzəli* olduğundan bu təvəllüd günü sonralar "Voskreseniye" - anadan olma-dirilmə kimi müqəddəsləşərək xristian dünyasında istər dirilmə, istərsə də ruhların nəcatı -istirahət günü kimi qəbul edilmişdir. Bu da məlumdur ki, yəhudilər şənbə gününü (subbotanı) özlərinin müqəddəs günü kimi qeyd edirlər. Allah-təala tərəfindən kainatın altı günə yaranması, yəni altı gün ərzində yaranıb tamamlanma günü, istirahət günü müqəddəs gün deyə qəbul ediblər. Əlbəttə, bu gün haqqında da (şənbə günü) səmavi kitabımız olan Qurani-Kərimdə daha doğru, ətraflı söhbət aparılır və bu günün müqəddəs gün olmasına şəkki-şübhə qalmır. Yəni bu günün (şənbə günü) müqəddəs olmasını biz də qəbul edirik. Yeri gəlmişkən nəzərinizə çatdırım ki, yəhudilərin hal-hazırda bayraqlarında olan emblem həmin bu müqəddəs günə işarədir. Həm dünyanın altı gün ərzində yaranmasına və həm də altı cəhətə - cənub, şimal, şərq, qərb, yer və göyə işarədir. Sanki, yəhudilərin altı guşəli emblemi, altıncı günün - şənbə gününün əzəmətli gün olmasını elan edir. Beləliklə də altıncı gün yəhudilərin istirahət günüdür. Biz hər iki millətin əzəmətli - müqəddəs günlərin hörmətini ehtiramla saxlayırıq.

Müsəlman dünyasında müqəddəs gün kimi qəbul edilən cümə gününün də özünəməxsus məziyyətləri var. Məlumdur ki, müsəlman dünyasında qəbul edilmişdir ki, Allah-təala külli-kainatın fəxri olan Həzrət Məhəmmədi (c.ə.v.) bu gündə qəbul edilmişdir. Yəni Rəsuli-Əkrəm (c.ə.v.) cümə günü merac etmişdir. Həmin bu müqəddəs cümə günü Həzrət Rəsulə (s.ə.v.) səmavi kitabımız Qurani-Kərim nazil edilmişdir. Hətta Adəm babamız və Həvva nənəmiz bu əziz və müşərrəf gündə xəlq edilmişdir. Axırül-əmr Allah-təala bu günün istirahət günü olduğunu iqrar edərək cümə surəsini nazil etmiş və cümə günlərində bütün müsəlmanların istirahət edərək, məscidlərə yığışıb ibadət etməyi məsləhət bilmişdir.

***Nərminə Alıxanova, Rasim Əliyev***

**(ardı var)**


TƏSİSÇİ: **Rafiq Abdullayev**

Baş redaktor: **Eldar Bəyləroğlu**

Baş redaktor müavini: **Babək Abdullayev**

Kommersiya direktoru: **Həbib Seyidəhmədov**

Xüsusi müxbir: **Sevinc Rafiqqızı**

Müxbirlər: **Səlimcan Rizmanov, Mövludağa Quliyev, Tofiq Qurbanov, Anar İbrahimov**

Ünvanımız: Bakı şəhəri, Mətbuat pr-i, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 4-cü mərtəbə

Şəhadətnamə: 446

Bank hesabımız: h/h 327201; kod 750406; Azərb. Beynəlxaoq Bankı "Sahil" şöbəsi; "BPP" mətbəəsində çap olunur. Dərc edilmiş materiallara görə müəlliflər məsuliyyət daşıyır. Mobil (050) 312-23-48